

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 aprel 2026-cı il №24 (3026) https://mod.gov.az Qiymәti 30 qəpik

## Müstəqillikdən Zəfərə gedən yol



Azərbaycan xalqının müstəqillik tarixi yalnız siyasi azadlıqla deyil, həm də dövlətçilik institutlarının, xüsusilə Silahlı Qüvvələrin formalaşması ilə ölçülür. 1991-ci ildə müstəqilliyini yenidən bərpa edən dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biri güclü və nizami ordu qurmaq idi. Lakin bu proses heç də asan olmadı.

1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması və oktyabrın 9-da Silahlı Qüvvələrin təsis edilməsi ilə bağlı qanunun qəbul olunması hüquqi baxımdan mühüm addım olsa da, bu qərarların praktiki icrası zəif idi. O dövrdə respublika rəhbərliyi tərəfindən sistemli ordu quruculuğu istiqamətində real tədbirlərin görülməməsi ölkənin müdafiə qabiliyyətini ciddi şəkildə zəiflətdi.

Torpaqlarımızın müdafiəsi pərakəndə şəkildə fəaliyyət göstərən könüllü dəstələrin üzərinə düşürdü. Bu dəstələrdə vahid komandanlıq, nizam-intizam və koordinasiya çatışmazlığı müşahidə olunurdu. Eyni zamanda, şəxsi maraqlara xidmət edən, mərkəzi hakimiyyətə tabe olmayan silahlı qruplaşmalar ölkədə vəziyyəti daha da mürəkkəbləşdirirdi. Nəticədə Azərbaycan həm daxili siyasi qeyri-sabitlik, həm də xarici təcavüz qarşısında ciddi çətinliklərlə üzləşmişdi.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyində olduğu kimi, ordu quruculuğunda da həlledici mərhələnin başlanğıcı oldu. Onun rəhbərliyi ilə ölkədə vahid komandanlıq prinsipi bərpa edildi, nizamsız silahlı dəstələr ləğv olunaraq müasir standartlara cavab verən nizami ordu formalaşdırıldı.

Ulu Öndər Heydər Əliyevin ön xəttə səfərləri, döyüşçülərlə birbaşa təmasda olması orduda mənəvi ruh yüksəkliyi yaratdı. Bu siyasətin nəticəsi kimi, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində uğurlu hərbi əməliyyat həyata keçirildi. Bu qələbə Azərbaycan Ordusunun potensialını nümayiş etdirən mühüm hadisə oldu.

1994-cü il mayın 12-də atəşkəsin elan olunması isə ordu quruculuğu prosesini daha sistemli şəkildə davam etdirmək üçün imkan yaratdı. Bu dövrdən etibarən Azərbaycan Silahlı Qüvvələrinin strukturunun təkmilləşdirilməsi, kadr hazırlığı və texniki təminat sahələrində ardıcıl islahatlar başlanıldı.

1998-ci il mayın 22-də imzalanan sərəncamla 26 iyun tarixinin Silahlı Qüvvələr Günü kimi qeyd olunması ordunun cəmiyyətdəki rolunun və nüfuzunun artırılmasına xidmət etdi. Bu qərar, eyni zamanda, Azərbaycan Ordusunun formalaşmasının tarixi və ideoloji əsaslarının möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan Ordusu inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu. Bu mərhələdə əsas diqqət ordunun modernləşdirilməsinə, arsenalın müasirləşdirilməsinə, maddi-texniki təchizatın gücləndirilməsinə və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldildi.

Hərbi sənaye kompleksinin yaradılması Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsində mühüm rol oynadı. Bu gün ölkədə 1000-dən artıq hərbi təyinatlı məhsul istehsal olunur və Azərbaycan öz hərbi sənaye potensialını beynəlxalq səviyyədə nümayiş etdirir.

(Ardı 2-ci səhifədə)

## Ötən həftə 191 mina və 1661 partlamamış hərbi sursat zərərsizləşdirilib



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 6-12-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 144, tank əleyhinə 47 mina və 1661 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 2052,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Ağdərədə istismar müddəti başa çatmış yararsız döyüş sursatları məhv ediləcək




Müdafiə Nazirliyi xəbər verir ki, aprelin 13-17-də istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla, Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq.

## Hakan Fidan: Türkiyə Azərbaycan ilə Ermənistan arasında sülhə töhfə verməyə çalışır

Türkiyə Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması üçün ciddi səylər göstərir.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada Anadolu agentliyinin redaktorları ilə "dəyirmi masa" müzakirəsi zamanı bildirib.

Hakan Fidan qeyd edib ki, Ankaranın regionda gərginliyin qarşısını almaq üçün atdığı fəal addımlar diplomatik sahədə, o cümlədən regional və qlobal oyunçular arasında güc balansının qorunması məqsədilə də özünü göstərir.

"Vəziyyətdəki hər hansı dəyişiklik və bölgədəki qeyri-sabitlik Türkiyəyə bu və ya digər şəkildə təsir edir, ona görə də Ankaranın Cənubi Qafqaz da daxil olmaqla dünyanın müxtəlif yerlərində baş verən hadisələrə perspektiv dövlət vizyonu olmalıdır", - deyə Türkiyənin xarici işlər naziri vurğulayıb.

## Görkəmli hərbi xadim və mühəndis-topoqraf general-leytenant Qalib bəy Vəkilov



***Qalib bəy İbrahim ağa oğlu Vəkilov 1888-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Qırax Salahlı kəndində anadan olub. Qalib bəy Vəkilovun ailəsi Azərbaycan tarixində silinməz izlər qoyan, hərbi, elmi və ictimai sahədə müstəsna xidmət və fəaliyyətləri olan məşhur Vəkilovlar nəslindəndir.***

Atası topoqrafiya üzrə ilk azərbaycanlı mütəxəssis, görkəmli general-mayor İbrahim ağa Vəkilov, anası ilk azərbaycanlı şəfqət bacısı sayılan Yelena Vəkilova (Mariya Vəkilova) olub. O, Paşa ağa Vəkilovun nəvəsi, Faris bəy Vəkilov (dövrünün ictimai-siyasi xadimi, mühəndis, diplomat) və Reyhan xanım Vəkilovanın (dövrünün tanınmış ziyalılarından olub) qardaşıdır. Qalib bəyin qızı Leyla xanım isə professor olub və ömrünü elmə həsr edib.

Qalib bəy sənətdə atasının yolunu seçib. O, hərbçi olmaq məqsədi ilə Tiflisdəki Kadet Korpusunda təhsil alıb. Buranı müvəffəqiyyətlə bitirdikdən sonra Xarkovdakı III Aleksandr adına Ali Hərbi-Texniki İnstituta qəbul olub. İkinci kursdan sonra o, könüllü olaraq həmin institutu tərk edib. Sonra Moskvadakı Alekseyev Hərbi Məktəbində təhsilini davam etdirib. 1910-cu ildə həmin məktəbi bitirən yunker Qalib bəy Vəkilov ordu sıralarında hərbi xidmətə başlayıb.

Birinci Dünya müharibəsi başlananda o, Qərb cəbhəsindəki mühəndis polkunda döyüşüb. Molodeçniy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə podpolkovnik Qalib bəy Vəkilov 2-ci dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub. Hərbi-texniki mütəxəssis kimi onun ən başlıca vəzifəsi düşmənin qəfil hücum edəcəyi bərə və keçidlərin müdafiəsinin möhkəmləndirilməsi, səngərlərdə piyada və tank əleyhinə maneələrin dəqiq yerləşdirilməsi olub.

(Ardı 5-ci səhifədə)

(Əvvəli 1-ci səhifədə)

# Müstəqillikdən Zəfərə gedən yol

Ordunun gücü təkcə texnika ilə deyil, həm də mənəvi-psixoloji hazırlıqla ölçülür. Bu baxımdan dövlət başçısının hərbçilərə göstərdiyi diqqət və qayğı onların döyüş ruhunun yüksəldilməsində mühüm rol oynayır.

Azərbaycan Ordusunun peşəkarlığı və gücü müxtəlif döyüş əməliyyatlarında özünü dəfələrlə sübut etmişdir. 2016-cı ilin Aprel döyüşləri ordunun çevik və effektiv hərəkət qabiliyyətini nümayiş etdirdi. Qısa müddətdə strateji yüksəkliklərin və ərazilərin azad olunması ordunun hazırlıq səviyyəsinin göstəricisi idi.

2018-ci ilin Günnüt əməliyyatı isə Naxçıvan istiqamətində mühüm strateji üstünlük qazandırdı. Bu əməliyyat nəticəsində geniş ərazilər nəzarətə götürüldü və ordumuzun mövqeləri daha əlverişli ərazilərə çəkildi.



2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun tarixində ən şanlı səhifəni yazdı. 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Ordunun yüksək döyüş qabiliyyəti, müasir texnologiyalardan effektiv istifadə və düzgün hərbi strategiya bu qələbənin əsas amilləri oldu.

Döyüşlər zamanı 5 şəhər, 4 qəsəbə və 300-dən çox kənd işğaldan azad edildi. Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla müharibə başa çatdı və regionda yeni geosiyasi reallıqlar formalaşdı.

Azərbaycan Ordusunun gücü və peşəkarlığı 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı zamanı bir daha öz təsdiqini tapdı. Antiterror əməliyyatı nəticəsində qanunsuz erməni silahlı birləşmələri tərksilah edildi və Azərbaycan dövlətinin suverenliyi tam bərpa olundu. Bu əməliyyatdan sonra regionda yeni təhlükəsizlik mühiti formalaşdı. Azərbaycan dövləti azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini daha geniş miqyasda həyata keçirməyə başladı. Bu ərazilərə həyatın qayıdışı, keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşü ölkənin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı oldu.

Eyni zamanda, bu əməliyyat Azərbaycan Ordusunun həm də sabitlik və təhlükəsizlik təminatçısı kimi çıxış etdiyini göstərdi. Ordumuzun əldə etdiyi təcrübə və uğurlar bu gün dünya hərbi ekspertləri tərəfindən təhlil olunur.

Azərbaycanın hərbi gücünün artmasında beynəlxalq əməkdaşlıq da mühüm rol oynayır. Xüsusilə qardaş Türkiyə ilə hərbi əməkdaşlıq strateji əhəmiyyətə malikdir. 2010-cu ildə imzalanan strateji tərəfdaşlıq müqaviləsi və 2021-ci ildə qəbul olunan Şuşa Bəyannaməsi bu əməkdaşlığı müttəfiqlik səviyyəsinə yüksəltdi.

Bundan əlavə, Azərbaycan NATO ilə "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində fəal əməkdaşlıq edir. Eyni zamanda, tərəfdaş ölkələrlə əlaqələr inkişaf etdirilir.

Bu əməkdaşlıqlar Azərbaycanın hərbi potensialının gücləndirilməsi ilə yanaşı, regionda sülh və təhlükəsizliyin təmin olunmasına da töhfə verir.

Azərbaycan Ordusunun formalaşması və inkişafı müstəqil dövlətçiliyin ən mühüm nailiyyətlərindən biridir. Çətin və mürəkkəb yoldan keçərək bu gün regionun ən güclü ordularından birinə çevrilən Azərbaycan Ordusu xalqımızın qürur mənbəyidir.

Bu ordu yalnız silah və texnika gücünə deyil, həm də Vətən sevgisinə, şəhidlərimizin qanı ilə yoğrulmuş müqəddəs dəyərlərə söykənir. Azərbaycanın hərbi qüdrəti ölkənin təhlükəsizliyinin təminatçısı olmaqla yanaşı, həm də regionda sülhün və sabitliyin əsas dayaqlarından biridir.

Müstəqillikdən Zəfərə gedən bu yol sübut edir ki, güclü dövlətin əsası güclü ordudan keçir. Azərbaycan Ordusu bu həqiqəti öz şanlı tarixi ilə təsdiqlədi.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi polisin yaradılmasının 34-cü ildönümü qeyd edildi



Ulu Öndərin siyasətini uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində müstəqil Azərbaycanda ordu quruculuğu prosesi də yeni mərhələyə qədəm qoydu. Bu gün hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Azərbaycan Ordusunun ən müasir silah və texnika ilə təchiz edilməsi daim ön planda saxlanılır. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində ordumuz qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrilib.

Şanlı və tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində islahatlar həyata keçirildi. Bu islahatlar Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsini də əhatə etdi.

Bu günlərdə Hərbi Polis İdarəsinin yaradılmasının 34-cü ildönümü münasibətilə tədbir keçirildi.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin idarənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyularaq xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirildi.

Sonra Ulu Öndərin, eləcə də Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanladığı təbrik məktubu oxunduqdan sonra Hərbi polisin yaranma tarixi və fəaliyyətlərindən bəhs edən videoçarx nümayiş etdirildi.

Tədbirdə Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsi rəisinin müavini - Hərbi Polis İdarəsinin rəisi general-mayor Elgün Əliyev çıxış edərək şəxsi heyəti ildönümü münasibətilə təbrik etdi, Hərbi polis bölmələrinin xidməti fəaliyyətinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən müsbət qiymətləndirildiyini vurğuladı.

Məlumat üçün bildirildi ki, Hərbi Polis İdarəsi müdafiə nazirinin əmri ilə 1992-ci il aprelin 10-da yaradılıb. 1992-1993-cü illər ərzində Hərbi Polis İdarəsinin tərkibində bölmələr formalaşdırılıb. Bu bölmələr də ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak edib və onlardan yeddi nəfər şəhidlik zirvəsinə yüksəlib.

Qeyd olundu ki, gündən-günə peşə bacarıqlarını inkişaf etdirən Hərbi polis bölmələrinin hərbi qulluqçuları beynəlxalq səviyyəli tədbirlərdə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin seminarlarında, habelə NATO-nun xətti ilə təşkil olunan (İnsan alverinə qarşı mübarizə, terrorizmə qarşı mübarizə, narkotiklərə qarşı mübarizə, silahlı münaqişələr hüququ və s.) kurslarda iştirak ediblər və bu tədbirlər bu gün də davam etməkdədir.

General-mayor Elgün Əliyev qeyd etdi ki, bu gün Hərbi polis bölmələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qayğısı sayəsində Azərbaycan Ordusunda qanunçuluğu qoruyan, hərbi intizamın keşiyində dayanan mütəşəkkil bir quruma çevrilib. "Qeyd etmək lazımdır ki, Ali Baş Komandanın müvafiq fərmanına əsasən, işğaldan azad olunmuş ərazilərimizdə təhlükəsizliyin təmin olunması, həmin ərazilərdə yerləşən hərbi hissələrdə ciddi buraxılış rejiminin yaradılması, dinc vətəndaşların normal həyat fəaliyyətinin qorunması məqsədilə yaradılmış komendant postlarında Hərbi polisin hərbi qulluqçuları mətinliklə xidmət aparır, baş verə biləcək neqativ halların qarşısının alınmasında yaxından iştirak edirlər".



İdarə rəisi, həmçinin bildirdi ki, hal-hazırda Hərbi polisin qarşısında mühüm vəzifələr durur. "Bunlardan ən başlıcası şəhərlərdə və digər yaşayış məntəqələrində qarnizon patrulları vasitəsilə hərbi qulluqçular arasında hərbi nizam-intizamın möhkəmləndirilməsi, Hərbi Avtomobil Müfəttişliyinin köməkliyi ilə hərbi təyinatlı avtomobillərin və hərbi texnikanın təhlükəsiz hərəkətinin təmin olunmasıdır. Hərbi polisə həvalə olunmuş vəzifələrdən biri də dövlət bayramlarının, mühüm dövlət və hərbi əhəmiyyətli tədbirlərin keçirilməsində iştirak etmək, mühafizə və təhlükəsizlik tədbirlərini təmin etməkdir. Belə ki, Azərbaycanda keçirilmiş hərbi paradlarda nümayiş olunan texnikaların hərəkətinin müşayiəti və mühafizəsi məhz Hərbi polis tərəfindən həyata keçirilib".

General-mayor Elgün Əliyev vurğuladı ki, bu gün bölmələrimizdə müasir standartlara cavab verən yeni binalar inşa olunmaqdadır. "Hərbi polisin bütün bölmələri silah və yeni hərbi texnikalarla təchiz edilir, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Şəxsi heyətin peşə hazırlığının təkmilləşdirilməsi, bölmələrin yüksək ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilir".

Qeyd olundu ki, Hərbi polisin hərbi qulluqçuları da 44 günlük Vətən müharibəsi zamanı gedən döyüşlərdə də fəal iştirak ediblər və onlardan 3 nəfəri şəhid olub. Hərbi polis döyüş əməliyyatlarının aparılmasında, hərbi intizamın qorunub saxlanılmasında, işğaldan azad edilmiş ərazilərdə komendant xidmətinin təşkil olunmasında, döyüşə yollanan avtomobil və döyüş texnikalarının təhlükəsiz hərəkətinin təmin edilməsində əhəmiyyətli xidmətlər göstərib.

General-mayor Elgün Əliyev əminliklə bildirdi ki, Hərbi polisin şəxsi heyəti nizam-intizamı, döyüş və mənəvi-psixoloji hazırlıqlarını yüksəldərək xalqımızın və dövlətimizin etimadını bundan sonra da şərəflə doğruldacaqdır.

İdarə rəisi hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzuladı.

Sonda komendant və qoşun xidmətinin təşkilində fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırıldı.

**Baş leytenant**
**Fərid RƏHİMLİ**
**"Azərbaycan Ordusu"**

# XTQ-nin bölmələrində inspeksiya yoxlamaları keçirilib





2026-cı ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) "N" hərbi hissəsində inspeksiya yoxlaması keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə yoxlamanın başlaması ilə əlaqədar olaraq hərbi hissənin Döyüş bayrağı sıra meydanına gətirilib.



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən keçirilən yoxlamaların növbəti mərhələlərində hərbi hissədə qərargah fəaliyyəti, döyüş hazırlığı və maddi-texniki təminatın vəziyyəti yoxlanılıb. Xüsusi təyinatlı taborlar həyəcan siqnalı ilə qaldırılaraq, müvafiq döyüş tapşırığına uyğun ərazidə onların taktiki fəaliyyətləri, səhra vərdişləri



və operativ hazırlıq səviyyələri yoxlanılıb.

Döyüş hazırlığı tədbirlərinin daha səmərəli təşkili, hərbi qulluqçuların peşəkarlığının artırılması və xidmətin müasir dövrün tələblərinə uyğun aparılması istiqamətində aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verilib.

# Azərbaycan və Çin arasında hərbi əməkdaşlıq inkişaf etdirilir



*Ölkələrimiz arasında hərbi sahədə əlaqələrin genişləndirilməsi məqsədi ilə Müdafiə Nazirliyinin nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib.*

Səfər çərçivəsində bu ölkənin Milli Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq Baş İdarəsində "Hərbi əməkdaşlıq sahəsində perspektivlərin müzakirə edilməsi üzrə işçi görüşü" keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti, inkişafı üçün mövcud olan potensial imkanlar və gələcək planlar barədə danışıqlar aparılıb, qarşılıqlı maraq doğuran bir sıra əməkdaşlıq istiqamətləri haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Tərəflər ötən il üçün müəyyən edilmiş hərbi əməkdaşlıq planında nəzərdə tutulan fəaliyyətlərin icrasını müsbət qiymətləndirib və cari ildə planlaşdırılan tədbirlərin icrası məsələlərini müzakirə edib.

Görüşdə həmçinin Azərbaycan-Çin arasında hərbi əməkdaşlığın təcrübə və informasiya mübadiləsi baxımından faydalı olduğu vurğulanıb.



Qeyd edək ki, işçi görüşün əsas məqsədi hər iki ölkənin müdafiə qurumları arasında mövcud əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın genişləndirilməsidir.

# “Anatolian Phoenix-2026” beynəlxalq təlimi uğurla davam edir





Qardaş Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anatolian Phoenix-2026" ("Anadolu Ankası-2026") beynəlxalq axtarış-xilasetmə təlimi uğurla davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim planına uyğun olaraq keçirilən brifinqlərdə iştirakçılara təhlükəsizlik qaydaları, icra olunacaq tapşırıqlar, həmçinin əməliyyatların aparılacağı ərazinin relyefi və iqlim xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Tapşırığa əsasən, şərti qəzaya uğramış pilotun aşkarlanması və xilas edilməsi məqsədilə paraşüt-desant və axtarış-xilasetmə bölmələri tərəfindən kompleks əməliyyat icra olunub. Helikopter vasitəsilə əraziyə cəlb edilən paraşüt-desant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri "fast rope" üsulu ilə eniş edərək binada mövqe tutmuş şərti terrorçu qrupunu zərərsizləşdirib və qrup rəhbərini ələ keçiriblər.

Əməliyyatın növbəti mərhələsində ərazi üzərində tam nəzarət təmin edilib, pilot təhlükəsiz şəkildə təxliyə olunub. Tapşırığın uğurla icrasından sonra şəxsi heyət helikopter vasitəsilə ərazini tərk edib.

Eyni zamanda, əməliyyata cəlb olunan aviasiya vasitələri qruplara havadan mühafizə və atəş dəstəyi göstərərək tapşırıqların effektiv icrasına köməklik göstərib.

İcra olunan fəaliyyətlər zamanı şəxsi heyətin yüksək peşəkarlığı, eləcə də bölmələr arasında qarşılıqlı fəaliyyət və koordinasiyanın yüksək səviyyədə olduğu nümayiş etdirilib.

Qeyd edək ki, beynəlxalq təlim aprelin 17-dək davam edəcək.

*Tibb xidməti*

# Şəxsi heyətin sağlamlığı ordunun sütunudur



Müasir dövrdə ordunun qüdrəti yalnız ən yeni silah sistemləri və texniki təchizatla məhdudlaşmır. Bu gücün əsas dayağını hazırlıqlı, fiziki və mənəvi baxımdan sağlam, yüksək vətənpərvərlik ruhuna malik hərbi qulluqçular təşkil edirlər. Xidmət müddətində onların nümayiş etdirdiyi intizam, məsuliyyət hissi və peşəkarlıq bütövlükdə ordunun döyüş qabiliyyətinin formalaşmasına və möhkəmlənməsinə birbaşa təsir göstərir.

"N" hərbi hissəsinin tibb məntəqəsində tibbi xidmətin təşkili xüsusi diqqət və dəqiqliklə həyata keçirilir. Burada çalışan təcrübəli və ixtisaslı tibb personalı şəxsi heyətin sağlamlığının qorunmasını mütləq borc, vəzifələrindən biri kimi qəbul edir və bu istiqamətdə sistemli fəaliyyət göstərir. Həkimlər və tibb işçiləri mövcud bilik və bacarıqlarını maksimum səviyyədə səfərbər edərək, hərbi qulluqçuların sağlamlığının möhkəmləndirilməsinə, eyni zamanda, bölmələrin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanmasına mühüm töhfə verirlər.

Müasir standartlara cavab verən, geniş və işıqlı binada yerləşən tibb məntəqəsində yaradılmış şərait tibbi xidmətin keyfiyyətli şəkildə təşkili üçün geniş imkanlar yaradır. Buradakı otaqlar ən son tibbi avadanlıqlarla təchiz olunmuş, müxtəlif istiqamətlər üzrə xidmət göstərən bölmələr isə fasiləsiz fəaliyyət göstərir. Fizioterapiya, stomatologiya, rentgen və ümumi diaqnostika sahələri, o cümlədən kardiologiya və oftalmologiya istiqamətləri üzrə müayinələrin aparılması şəxsi heyətin sağlamlığının kompleks şəkildə qiymətləndirilməsinə şərait yaradır. Qəbul otağında ilkin müayinə prosesi həyata keçirilir, xəstəliyin xarakteri müəyyən edilərək dəqiq diaqnoz qoyulur və uyğun müalicə istiqaməti seçilir. Eyni zamanda, stasionar və izolyasiya otaqları da daim hazır vəziyyətdə saxlanılaraq operativ şəkildə istifadə olunur.

Şəxsi heyətin rahatlığı üçün nəzərdə tutulmuş yeməkxana, hamam və digər zəruri məişət otaqları da daim işlək vəziyyətdə saxlanılır ki, bu da hərbi qulluqçuların özlərini diqqət və qayğı ilə əhatə olunmuş hiss etmələrinə imkan verir. Müntəzəm olaraq aparılan tibbi müayinələr çərçivəsində əsgərlərin sağlamlıq vəziyyəti xüsusi nəzarətdə saxlanılır, zabit heyətinin dispanser yoxlanışları isə əvvəlcədən müəyyən edilmiş plana uyğun şəkildə icra olunur. Sağlam həyat tərzinin qorunması məqsədilə gigiyenik normalara ciddi riayət edilməsi təmin edilir ki, bu da ümumi sağlamlıq göstəricilərinin yüksək səviyyədə qalmasına xidmət edir. Bütün bu işlərin arxasında isə hərbi tibb işçilərinin yorulmaz zəhməti, məsuliyyətli yanaşması və peşəkarlığı dayanır.



Qeyd edim ki, tibb məntəqəsində xidmət edən personal ali təhsilli, ixtisaslaşmış və təcrübəli həkimlərdən ibarətdir. Onlara yaxınlaşaraq işin gedişatı ilə yaxından tanış olduq.

Tibb xidməti leytenantı Cavid Abdıyev hərbi hissənin tibb məntəqəsində əsgər Elşən Əlimovu müayinə edirdi. Müraciət edən əsgərin vəziyyəti diqqətlə yoxlanılır, ilkin tibbi müayinə aparılır və şikayətlərin səbəbi müəyyənləşdirilirdi. Həkim tərəfindən zəruri tibbi yardım göstərilərək, sağalma prosesinin sürətləndirilməsi üçün müvafiq tövsiyələr verilirdi. Eyni zamanda, əsgərin vəziyyətinin daha ətraflı qiymətləndirilməsi məqsədilə əlavə mütəxəssis müayinəsinə yönləndirilməsi də təmin olunurdu.

Tibb xidməti leytenantı Cavid Abdıyev qeyd etdi ki, burada fəaliyyət göstərən tibb personalının hər biri peşəkar hərbi həkimlərin təcrübəsindən yararlanaraq öz bilik və bacarıqlarını daim inkişaf etdirir və xidmətə məsuliyyətlə yanaşır. Onun sözlərinə görə, hərbi sahədə fəaliyyət göstərmək böyük məsuliyyət tələb edir və bu məsuliyyətin öhdəsindən layiqincə gəlmək üçün hər bir tibb işçisi öz üzərinə düşən vəzifələri yüksək səviyyədə icra etməyə çalışır: "Hərbi xidmət sahəsində çalışdığım üçün üzərimə düşən vəzifələri vicdanla və peşəkarlıqla yerinə yetirməyi özümə borc bilirəm. Bu gün ölkəmizin bizə daha çox ehtiyacı var və biz də hərbi qulluqçularımıza xidmət göstərməklə bundan qürur duyuruq. Vətənimizi qoruyan hərbi qulluqçuların sağlamlığının keşiyində dayanmaq hər birimiz üçün böyük fəxrdir".

Tibb məntəqəsində xidmət edən gizir Xəqani Rufullalı da şəxsi heyətin sağlamlığının qorunması istiqamətində üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirən tibb işçilərindən biridir. O, gündəlik tibbi nəzarət və profilaktik tədbirlərin həyata keçirilməsində fəal iştirak edir, əsgərlərin sağlamlıq vəziyyətini daim diqqətdə saxlayır.

Növbəti tibbi baxış zamanı gizir Xəqani Rufullalı əsgər Murad Sofiyevin səhhətini yoxlayaraq onun arterial təzyiqini ölçürdü. Aparılan müayinə nəticəsində əldə olunan göstəricilər diqqətlə qiymətləndirilirdi və əsgərin ümumi vəziyyəti nəzarətə götürüldü.

Gizir Xəqani Rufullalı xidmətində yalnız tibbi müdaxilə ilə kifayətlənmir, eyni zamanda, əsgərlərlə maarifləndirici söhbətlər apararaq sağlam həyat tərzinin əhəmiyyətini də onlara izah edir. Onun diqqətli yanaşması və peşəkar fəaliyyəti sayəsində şəxsi heyət özünü etibarlı əllərdə hiss edir. Bu cür fədakar tibb işçilərinin fəaliyyəti isə hərbi hissədə sağlam mühitin qorunmasına və döyüş hazırlığının yüksək səviyyədə saxlanmasına mühüm töhfə verir.

"N" hərbi hissəsinin tibb heyəti məhz bu ali məqsədləri rəhbər tutaraq öz peşə yolunu seçib. Onlar şəxsi heyətə yüksək səviyyədə tibbi xidmət göstərməklə, həm vətəndaşlıq borclarına, həm də Hərbi Andlarına sadiq olduqlarını gündəlik fəaliyyətləri ilə nümayiş etdirirlər.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Peşəkar tankçı

Hərb elminin nəzəriyyəçiləri döyüşdə tankın yerini və əsas üstünlüklərini xüsusi olaraq qeyd edirlər. Tank vasitəsilə müharibədə üstünlüyü ələ almaq mümkündür. İkinci Dünya müharibəsindən bu yana tanklar ən təsirli və güclü döyüş vasitəsi kimi dünya dövlətlərinin ordusunun silahlanmasına daxil edilib. Uzun lüləli topları, möhkəm zirehi və qarşısına çıxan hər şeyi əzib keçən tırtılları ilə tanklar müharibələr tarixində böyük izlər qoyub.

Azərbaycan Ordusunun da şanlı döyüş yolu keçən tank bölmələri beynəlxalq tank biatlonlarında, orduda keçirilən bütün yarışlarda yüksək döyüş bacarığı nümayiş etdirərək hər zaman uğurlu nəticələr, qələbələr əldə edib. Qazanılan uğurlar tank heyətlərimizin vəzifə borcuna məsuliyyətlə yanaşmasının və döyüş qabiliyyətinin, peşəkarlığının daima artırılmasının göstəricisidir. Uğultulu səsi ilə düşmən cəbhəsində vahimə yaradan, "döyüşün aslanı" adlandırılan bu zirehli texnikanı idarə etmək üçün yüksək peşəkarlıq, məsuliyyətlilik və təşəbbüskarlıq tələb olunur. Bu baxımdan, qeyd edilənlərin önəmi, zərurəti nəzərə alınaraq, tank heyətlərinə təcrübəli, peşəkarlığını daima artırmağa can atan, zirehli texnikanın taktiki-texniki xüsusiyyətlərini öyrənən hərbi qulluqçular cəlb olunurlar. Hər bir tank heyəti onlara təhkim olunmuş texnikaya qulluq edərək onu işlək və saz vəziyyətdə saxlamağı bacarmalıdır. Hərbi xidmətə yeni gələn əsgərlərə də zirehli texnikanın sirləri təcrübəli hərbi qulluqçular tərəfindən öyrədilir.

Bütün hərbi hissələrdə olduğu kimi, tank hərbi hissəsində də xidmət günün nizam qaydalarına uyğun şəkildə aparılır. Buradakı tank bölmələrimizdə peşəkar hərbi qulluqçularımız Vətənə xidmət edirlər. Məlumat üçün bildirmək yerinə düşər ki, haqqında danışdığımız tank hərbi hissəsi müasir Azərbaycan Ordusunun formalaşmağa başladığı ilk illərdə yaradılan bölmələrdən biri olub və düşmənlə mübarizədə, haqq savaşımızda, Zəfər yürüşündə şanlı döyüş yolu keçərək şöhrət qazanıb.

Öyrənirik ki, hərbi hissənin şəxsi heyəti döyüş hazırlığı planına əsasən, döyüş bacarıqlarının artırılması məqsədilə poliqona çıxır, təlimlər keçirir, tank heyətləri bacarıq və vərdişlərini yoxlayırlar. Tank heyətləri peşəkar zabitlərdən və vəzifə borcunu layiqincə yerinə yetirən nümunəvi hərbi qulluqçulardan ibarətdir.

Xidmətini böyük həvəslə yerinə yetirən tank komandiri gizir Yunis Şıxəliyev tankın - bu ağır texnikanın tarixindən, hansı üstünlüklərə malik olmasından danışdı: "Dünya hərb tarixində məşhur rəssam Leonardo Da Vinçi tərəfindən ilk dəfə hazırlanan tank maketi əsrlər sonra Birinci Dünya müharibəsində həqiqətə çevrildi. İkinci Dünya müharibəsi zamanı isə tanklar dövrünə görə inkişaf etdi. Hazırda istehsal imkanları daha da inkişaf edən, müasirləşən tanklar piyada döyüşlərində ən böyük strateji qüvvə hesab olunur. Hərb sənətində zirehli texnikanın, o cümlədən tankların rolu danılmazdır və döyüş meydanındakı funksiyasını daim qoruyub saxlayır. Onu da qeyd edim ki, hər kəs sevdiyi peşəsində özünü doğruldur. Mən də tankçı sənətini öz arzumla seçmişəm. Hərbi xidmətdə qazandığım uğurlar, qələbələr Vətənə, torpağa sevgidən güc alır. Tankın sirlərini mənə öyrədən komandirlərimə minnətdaram. Onlar bu zirehli texnikanın hərbi sirlərini, döyüş vərdişlərini bizə sevə-sevə aşılayıblar. Mən də sevdiyim tankçı peşəsinin incəliklərini öyrəndim, demək olar ki, bütün sirlərinə yiyələndim. Dərslərdə, təlimlərdə qazandığım bilikləri heç bir çətinlik çəkmədən xidmətimə uğurla tətbiq etdim".



Peşəsinə dərin marağından söhbət açan tank komandiri Yunis Şıxəliyev bu peşənin olduqca vacib tərəflərini bizə fəxrlə söylədi: "Bunun üçün də tankı idarə edərkən son dərəcə məsuliyyətli, təmkinli olmalı, bütün diqqətin, fikrin gördüyün işin üzərində cəmlənməlidir. Birinci növbədə bu tələblər mütləq yerinə yetirilməlidir. Şəxsi heyətin döyüş hazırlığının, bilik və bacarığının artırılmasına çalışırıq. Xidmətimizdə heç bir çətinliyimiz yoxdur. Çünki xidmət peşəkar tank heyətlərimiz tərəfindən aparılır. Bu döyüş maşını tank haqqında nə qədər nəzəri biliklər öyrənsən də, yenə də daha çox təcrübəni artırmalısan. Mən də təcrübədə qazandığım bilikləri ordu sıralarına yeni gələn tank heyətlərinə yorulmadan, böyük həvəslə öyrədirəm. Çalışıram ki, onlar da bacarıqlı mütəxəssis olsunlar".

Tank komandiri gizir Yunis Şıxəliyev 13 iyun 1991-ci ildə Yardımlı rayonunun Gendərə kəndində anadan olub. 2009-cu ilin oktyabrında cəbhə xəttində yerləşən "N" hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2011-ci ildə hərbi xidmətini başa vuran Yunis yenidən Azərbaycan Ordusunun sıralarına qayıdıb. Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) "Gizir hazırlığı" kursunu bitirdikdən sonra "N" hərbi hissəsində tank komandiri kimi hərbi xidmətini davam etdirməyə başlayıb. O, 15 ildən artıqdır ki, Vətənimizin müdafiəsində əzmlə dayanan cəsur tankçılarımızın sırasındadır. Peşəkar tank komandiri Y.Şıxəliyev bu illər ərzində hər zaman intizamı, çalışqanlığı, verilən tapşırıqları vaxtında yerinə yetirən hərbi qulluqçu kimi nümunəvi xidməti ilə seçilib. 44 günlük Vətən müharibəsi başlayanda Yunis də ordumuzun peşəkar tank bölmələrinin tərkibində döyüşlərdə iştirak edib. 30 sentyabr tarixində onların bölmələri Füzuli rayonunun Alxanlı kəndi istiqamətində gedən ağır döyüşlərə başlayıb. Həmin gün Yunisin idarə etdiyi tank vurulub. Özü və sürücü-mexanik ağır yaralansa da, tuşlayıcı şəhid olub.

Tank komandiri gizir Yunis Şıxəliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medallarını bu gün sinəsində fəxr və qürur hissi ilə daşıyır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# Görkəmli hərbi xadim və mühəndis-topoqraf general-leytenant Qalib bəy Vəkilov



(Əvvəli 1-ci səhifədə)

Rusiya İmperator Ordusunda xidmət edən Qalib bəy Vəkilov daha sonra Azərbaycan Demokratik Respublikasında artilleriya generalına qədər yüksəlib. Birinci Dünya müharibəsi və Azərbaycan Xalq Cümhuriyyəti dövründə göstərdiyi xidmətlərə görə "general-leytenant" ali hərbi rütbəsinə layiq görülüb.

Qalib bəyin həyat yoldaşı Aleksandra İvanovna Vəkilova da onunla birgə Birinci Dünya müharibəsi illərində "leytenant" rütbəsində döyüşən orduda xidmət edib. O, hərbi səhra hospitalında şəfqət bacısı işləyib.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qalib bəy Vəkilov Milli Orduda mühüm vəzifələrdə xidmət edib. O, ordunun Hərbi Mühəndislər İdarəsinin rəisi vəzifəsinə təyin olunub. Bu vəzifədə xidmət edərkən ölkənin müdafiə istehkamlarının qurulmasında yaxından iştirak etməklə mühüm töhfələr verib.

Qalib bəy Vəkilov 1920-ci ildən sonra - Azərbaycanda Sovet hakimiyyəti qurulduqda Bakı Hərbi Mühəndislər İdarəsinin rəisi vəzifəsinə təyin olunub. Az sonra o, XI Ordunun Ənzəli şəhərindəki mühəndis qoşunları hissəsinin rəisi, Zaqafqaziya qızıl ordu hərbi inqilab şurasının hərbi sənaye komitəsinin direktoru olub.

Qalib bəy Azərbaycanın sovetləşməsindən sonra repressiyalara məruz qalan hərbçilərdən biri olub. O, 1931-1933-cü illərdə həbsdə olub. 1937-ci ildə isə ikinci dəfə həbs olunub və noyabrın 16-da sovet rejimi tərəfindən güllələnib.

Onun xatirəsi bu gün də Azərbaycan hərb tarixində və Azərbaycan generalları arasında fəxr və şərəflə anılır.

**"Azərbaycan Ordusu"**

## Gənc zabitlərimiz

# "Vətənin ərazi bütövlüyünü qorumaq peşəsi müqəddəsdir"

*Xalqına, Vətəninə, dövlətinə sədaqətlə, layiqincə xidmət edən, torpağa bağlı olan oğulların sırasında ordumuzun bir gənc zabiti də var. O, tank bölmələrinin birində xidmət edən taqım komandiri leytenant Həsən Əlizadədir.*



27 sentyabr 2020-ci il... 44 günlük Vətən müharibəsinin, xalqımızın Zəfər yürüşünün başlandığı tarixi gün. Həsən kursant olarkən o tarixi günün qürurunu yaşamışdı. Düşünmüşdü ki, kaş o da xalqımızın haqq işi uğrunda Azərbaycan Ordusunun başladığı şanlı döyüşlərin iştirakçısı olardı. Gənc zabit qürurunu yaşadığı o günləri indi ömrünün mənası hesab edir. O, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun hərb salnaməsinə şərəflə yazılan Zəfər tariximizin hər səhifəsini böyük həvəslə öyrənir və öyrədir.

Leytenant Həsən Əlizadə Biləsuvar rayonunun Xırmandalı kəndində vətənsevər, torpaqsevər bir ailədə doğulub. O, Birinci Qarabağ müharibəsinin veteranı olan Həsən babasının adını daşıyır. Həsən dedi ki, babasının cəbhə xatirələri ilə böyüyüb boya-başa çatıb. "Babam həmişə iştirakçısı olduğu Birinci Qarabağ müharibəsinin ağır günlərindən, hərbi qüvvənin, təminatın yoxluğundan, ermənilərin yerli əhaliyə qarşı törətdikləri vəhşiliklərdən, faciələrdən, işğəncələrdən danışardı. Gözəl Qarabağımızın, Şuşamızın, tarixi torpaqlarımızın ermənilər tərəfindən necə işğal edilməsi haqqında söhbətlərin şahidi olmuşam. Qisas qiyamətə qalmadı. Şükürlər olsun, xalqımızın mərd, igid oğulları düşməndən şəhidlərimizin qisasını aldı. Rayonumuz da, doğulub böyüdüyüm kəndimiz də igid, qorxmaz oğullar yetişdirib. Onlar da Vətənimizin müdafiəsində qalxaraq erməni işğalçılarına qarşı fədakarlıqla döyüşüblər. Neçə-neçə mərd oğul Vətənimizin bütövlüyü naminə canından keçib. Doğma Azərbaycanımızın hər qarış torpağı əzizdir. Vətənin ərazi bütövlüyünü qorumaq peşəsi müqəddəsdir".

Həsənin hələ kiçik yaşlarından hərbi formaya sevgisi, eyni zamanda, böyüdüyü mühit onu müqəddəs yolun başlanğıcına gətirib... O, 2016-2019-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Burada təcrübəli, peşəkar müəllimlərin onlara hərbi biliklərin aşılanmasında mühüm rolu olub. Heydər Əliyev adına Hərbi İnstitutu "Tank" ixtisası üzrə bitirib. Təhsil aldığı illərdə hərbi bacarığını, ixtisas üzrə praktiki vərdişlərini daima artırmağa çalışıb. 2024-cü ildən hazırda xidmət etdiyi hərbi hissəyə taqım komandiri vəzifəsinə təyin olunub. Leytenant Həsən Əlizadə bu gün Azərbaycan Ordusunun sıralarında qürurla xidmət edən gənc zabitlərimizdəndir.

Keçmiş döyüşçü ailəsində doğulub böyüyən Həsən onu da vurğuladı ki, bu gün onun qardaşı və iki əmisi oğlu Vətənə xidmət yolunu seçiblər. "Qardaşım Mirzə Əliyev gizirdir. İki əmim oğlu baş leytenantlar Cəmil Əliyev və Pərvin Əliyev Azərbaycan Ordusunun zabitləridir. Hər ikisi C.Naxçıvanski adına Hərbi Liseyi və indiki Heydər Əliyev adına Hərbi İnstitutu bitiriblər. Yaxın qohumum müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elvin Məmmədov İkinci Qarabağ müharibəsinin şəhididir. Ailəmizdə, yaxın qohum-əqrabada həmişə hərbi formalı insanlar görmüşəm. Onlar mənə bu hərbi formanı sevdiriblər. Hərb sənətini seçməyimdə böyük rol oynayıblar. Hər birimiz Vətənə, xalqa, dövlətə şərəflə, ləyaqətlə xidmət etməyə çalışırıq. Azərbaycanımızın ərazi bütövlüyünün qorunmasının təminatçısı olan qalib ordumuzun hərbi qulluqçuları kimi peşəkarlığımızı daima artıracağımıza, ölkəmizin etibarlı müdafiəsinə hər an hazır olacağımıza Hərbi And içmişik".

İnanırıq ki, leytenant Həsən Əlizadə qazandığı hərbi bilikləri tabeliyində olan şəxsi heyətə hər zaman böyük həvəslə öyrədəcək, onların peşəkarlığının artırılmasına bütün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# Xidmətimizdə etimad şərtdir

Bu gün Azərbaycan Ordusu dövlətimizin müstəqilliyinin, suveren hüquqlarının və ərazi bütövlüyünün qorunmasında əsas dayaqlardan biri kimi mühüm inkişaf mərhələsi keçib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu strategiyası hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun şəkildə ardıcıl və uğurla davam etdirilir. Son illərdə görülən sistemli və məqsədyönlü tədbirlər Azərbaycan Ordusunun döyüş hazırlığını əhəmiyyətli dərəcədə artırıb, maddi-texniki imkanlarını genişləndirib, hərbi hissələrin infrastrukturunun müasir standartlara uyğun yenilənməsini təmin edib.

Azərbaycan Ordusunun formalaşması və güclənməsi yalnız təminatla məhdudlaşmır. Bu prosesdə şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsi və hərbi nizam-intizamın daha da gücləndirilməsi əsas prioritetlərdəndir. Məhz bu istiqamətlər üzrə aparılan ardıcıl işlər dövlətin ordu quruculuğu siyasətinin başlıca xəttini təşkil edir.

Hərbi hissələrdə xidmət prosesinin düzgün və səmərəli şəkildə təşkili, döyüş hazırlığı üzrə məşğələlərin müasir tələblərə uyğun yüksək səviyyədə keçirilməsi, eləcə də nizamnamənin tələblərinə ciddi riayət olunması ordunun gücünü və döyüş qabiliyyətini müəyyən edən əsas amillərdən hesab olunur.

Bu gün Azərbaycan Ordusu regionda ən qüdrətli ordulardan biri kimi tanınır. Müasir silah-sursat və hərbi texnika ilə təmin olunan ordu şəxsi heyətin peşəkarlıq səviyyəsinin davamlı şəkildə artırılmasına xüsusi önəm verir, döyüş hazırlığı üzrə planlaşdırmanı isə potensial təhlükələr əsasında həyata keçirir.

Belə qüdrətli və intizamlı ordunun tərkibində xidmət edən gənclər məsuliyyəti və xidmətə sadiqlikləri ilə bu şərəfli ada layiq olduqlarını sübut etməyə çalışırlar. Bu mənada, nümunəvi xidmətləri ilə seçilən hərbi qulluqçuların fəaliyyəti xüsusi vurğulanmalı və qeyd edilməlidir.

Belə nümunəvi hərbi qul-



luqçular sırasında Qəbələ rayonundan hərbi xidmətə çağırılmış əslən Kəlbəcər rayonundan olan əsgər Ramin Yusifli də qeyd edilə bilər.

Ramin Yusifli 12 mart 1998-ci ildə anadan olub. O, hələ məktəb illərindən etibarən intizamlı davranışı, məsuliyyətli münasibəti və çalışqanlığı ilə fərqlənib. Oxuduğu məktəb də Vətən sevgisini Raminin gözündə daha da ucaldıb. Təhsilinə ciddi yanaşan Ramin sinif yoldaşları arasında nümunəvi şagird kimi tanınıb, gənc yaşlarından etibarən daim özünü inkişaf etdirməyə xüsusi diqqət göstərib.

2019-cu ildə Anadolu Universitetinin "İnformasiya sistemləri və idarəetmə" fakültəsinə qəbul olub. 2025-ci ildə ordu sıralarına daxil olan Ramin asudə vaxtlarını faydalı şəkildə dəyərləndirməyə üstünlük verir. O, mütaliəyə xüsusi maraq göstərir, kitab oxumağı dünyagörüşünü və bilik səviyyəsini artırmağın əsas yollarından biri kimi qəbul edir. Vətən müdafiəçisi fiziki hazırlığını daim yüksək səviyyədə saxlamaq üçün mütəmadi olaraq idmanla məşğul olur. Bu keyfiyyətlər Raminin şəxsiyyətinin formalaşmasında və xarakterinin möhkəmlənməsində mühüm rol oynayır.

Ramin xidmət etdiyi hərbi hissədə üzərinə düşən tapşırıqları məsuliyyətlə və layiqincə yerinə yetirməyə çalışır. Gündəlik xidmət zamanı intizamlı davranışı ilə fərqlənən əsgər komandanlıq tərəfindən verilən göstərişləri vaxtında və dəqiqliklə icra etməklə şəxsi heyət arasında hörmət və etimad qazanıb.

"Azərbaycan Ordusunda xidmət etmək mənim üçün böyük qürur mənbəyidir. Burada hər bir hərbi qulluqçudan yüksək intizam, məsuliyyət və Vətənə sədaqət tələb olunur. Əsgərlərə göstərilən diqqət və qayğı xidmətə daha böyük ruh yüksəkliyi ilə yanaşmağımıza stimul yaradır. Komandanlığın tapşırıqlarını vaxtında və dəqiqliklə icra etmək hər birimizin əsas vəzifəsidir. Mən də Azərbaycan əsgəri adına layiq olmaq və üzərimə düşən borcu layiqincə yerinə yetirmək üçün əlimdən gələni edirəm", - deyə Ramin qeyd etdi.

Azərbaycan Ordusunda xidmət edən belə gənclər müstəqil dövlətimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün etibarlı əllərdə olduğunu təsdiqləyir. Bu gün əldə olunan nailiyyətlər göstərir ki, Azərbaycan Ordusu qarşısına qoyulan bütün vəzifələri bundan sonra da uğurla yerinə yetirməyə qadirdir. Əsgər Ramin Yusifli kimi nümunəvi gənclər isə bu şərəfli missiyanın davamçıları olaraq ölkəmizin hərbi qüdrətinin daha da möhkəmlənməsində öz töhfələrini verirlər.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

# Müharibə çarmıxı: zehin, güc, qorxu!

İnsanın yıxılıb-yıxılmamasını, irəli getməsini və ya geri çəkilməsini müəyyən edən əsas amil zehindir. Zehin iradənin və fiziki gücün hansı vəziyyətdə olduğunu ölçən bioloji bir mexanizm kimi çıxış edir.

Bəs hərbçi üçün daha həlledici olan nədir: zehni güc, yoxsa fiziki güc?

Döyüş meydanında əsgərə təsir edən əsas faktor ölüm-qalım dilemmasıdır. Bu dilemma insanın bütün varlığını görünməz bir hörümçək toru kimi bürüyür. Belə anlarda insan ruhu qorxunun sıx toxunmuş toruna düşür və hər bir qərar bu torun içində formalaşır.

Əsgərin döyüş meydanındakı fəaliyyəti onun zehni, fiziki və psixoloji hazırlığı ilə birbaşa əlaqəlidir. Sülh dövründə qazandığı hərbi biliklər sayəsində əsgər öz ixtisasına mükəmməl şəkildə yiyələnir. Fiziki məşqlərə cəlb olunmaqla bədəninin dözümlülüyünü artırır, psixoloji hazırlıq keçməklə isə zehni baxımdan formalaşır. Psixoloji hazırlıq döyüş zamanı hisslərin idarə olunmasında, stresə davamlılıq göstərilməsində və yoldaşlarına vaxtında yardım edilməsində mühüm rol oynayır. Zehni və fiziki hazırlıq döyüşçüdə mənəvi gücün formalaşması və inkişafı üçün əsas təməl hesab olunur.

Müharibə insanın daxili imkanlarının sərhədlərini üzə çıxaran çoxşaxəli bir sınaqdır. Bu sınaq "müharibə çarmıxı" anlayışı ilə izah oluna bilər. Sözügedən anlayış döyüşçünün üzləşdiyi üç əsas amilin - qorxu, zehni güc və fiziki gücün kəsişməsində formalaşır.




Müharibə döyüşçü üçün bir çarmıxdır: bir tərəfində qorxu, digər tərəfində fiziki tükənmə, mərkəzində isə zehni güc dayanır. Qorxu hər bir əsgərin daxilində mövcuddur, lakin onu idarə edə bilən döyüşçü zehni üstünlük qazanır. Fiziki güc bədəni irəli aparsa da, zehni güc onu döyüşdə saxlayan əsas dayaqdır. Bu üç amilin vəhdəti döyüşçünün taleyini müəyyənləşdirir.

Qorxu amili (qorxu) - döyüş şəraitində hər bir fərdin təbii reaksiyasıdır və onun davranışlarına birbaşa təsir göstərir. Analitik araşdırmalar göstərir ki, qorxu özlüyündə neytral bir psixoloji kateqoriyadır; onun müsbət və ya mənfi təsiri döyüşçünün zehni hazırlıq səviyyəsindən asılıdır. Zehni dayanıqlığı yetərli olmayan şəxslərdə qorxu qərarsızlıq, panika və effektivliyin azalmasına səbəb olur. Əksinə, zehni hazırlığı yüksək olan döyüşçü qorxunu idarə edərək onun diqqət və ayıqlıq funksiyalarını gücləndirə bilir.

Qorxu mənfi emosiyadan çox həyatda qalmanı təmin edən əsas instinktdir. Müharibədə qorxu tamamilə aradan qalxmaz, amma idarə oluna bilər.

**Qorxunun rolu:**

- təhlükəni real qiymətləndirməyə və diqqəti toplamağa kömək edir;
- əgər nəzarət altına alınmazsa, panika, yanlış qərarlar və fərarilik - döyüşdən yayınma kimi nəticələrə səbəb ola bilər;
- yaxşı təlim görmüş hərbçi qorxunu "mühafizə mexanizminə" çevirə bilir - onu motivasiya kimi istifadə edir. Əks təqdirdə isə orqanizmi iflic edə, döyüşçünü panika halında hərəkətsiz duruma sala bilir. Qorxunu idarəetmə qabiliyyəti peşakar komandir və psixoloq heyətinin təlimi ilə inkişaf etdirilir.

Zehni güc (zehin) - müharibə çarmıxının mərkəzi elementi hesab olunur. Zehni hazırlıq döyüşçüyə stresli və riskli situasiyalarda rasional qərar qəbul etmək, informasiya axınını səmərəli emal etmək və planlaşdırma funksiyalarını yerinə yetirmək imkanı verir. Bu baxımdan zehni güc təkcə fərdi xüsusiyyət deyil, həm də döyüş hazırlığının strateji komponenti kimi qiymətləndirilir.

Zehin - hərbçinin vəziyyətini düzgün qiymətləndirmək, riskləri analiz etmək, qərar vermək və soyuqqanlı qalmaq bacarığıdır. Bu, həm təlim nəticəsində formalaşır, həm də təbii intellektual çevikliyin göstəricisidir.

**Zehnin rolu:**

- döyüşdə situasiyanın "duman"ını dağıdır - yəni, qeyri-müəyyənlik şəraitində doğru istiqaməti tapmağa kömək edir;
- qorxunu idarə etməyə kömək edir - çünki rasionallıq panikanın qarşısını alır;
- resursları (zaman, qüvvə, sursat və s.) optimal idarə etməyə imkan yaradır;
- komandan qərarlarında strateji düşünməni təmin edir.

Fiziki güc (güc) - isə döyüş tapşırıqlarının icrasında əsas rol oynayır. Uzunmüddətli fiziki yüklənmə, ətraf mühit faktorları və resurs məhdudiyyətləri döyüşçünün performansına birbaşa təsir edir. Analitik təhlillər göstərir ki, fiziki gücün effektivliyi zehni dayanıqlıqla sıx bağlıdır; zehni zəiflik fiziki resursların sürətli tükənməsinə və döyüş qabiliyyətinin azalmasına səbəb olur.

Güc yalnız əzələ enerjisi deyil, həmçinin iradə, dözümlülük və psixoloji dayanıqlığın birləşməsidir.

Hərbçi üçün güc həm bədəni, həm də ruhu təzyiq altında qorumaq deməkdir.

**Gücün rolu:**

- bədən yüklənmələrinə və yorğunluğa qarşı müqavimət yaradır;
- psixoloji təzyiq zamanı təslim olmamaq üçün "şəxsiyyət dayağı" rolunu oynayır;
- liderlik keyfiyyətlərini və komandaya inam hissini gücləndirir;
- zehinin effektivliyini qorumağa kömək edir, çünki zəif bədən, düşüncəni də zəiflədir.

Avtomobil yolunu keçmək istəyən piyada ilk olaraq qərar verir, piyadalar üçün nəzərdə tutulan keçidə yaxınlaşır və işıqforun yanmasını gözləyir. Bu, zehni fəaliyyətdir. Daha sonra isə hərəkətə başlayır, iti addımlarla yolu keçir. Bu isə fiziki güc və qorxunun instinktidir. Bu cür qarşılaşdırmaların sayını artırmaq olar.

Sonda qeyd etmək istərdim ki, piyadanı döyüşçü, yolu isə döyüş meydanı olaraq təsəvvür etsək, "müharibə çarmıxının" həyatımızın bir çox sahələrində bizimlə olduğunu dəqiq başa düşə bilərik. Bu üç element arasında harmoniya pozularsa, hərbçi ya həddindən artıq düşünür və qərarsız qalır, ya da kor cəsarətlə riskə atılır deməkdir.

Ən səmərəli döyüşçü isə ağlı ilə düşünən, iradəsi ilə dözən, qorxusunu idarə edən şəxsdir.

**Mayor**
**Amil MƏHƏRRƏMOĞLU**
**hərbçi-psixoloq**

*Gənc zabitlərimiz*

# Vətənə sədaqətin və insanlığa xidmətin ünvanı

Vətən torpağı hər zaman öz qoynunda igid, mərd və məsuliyyətli oğullar yetişdirib. Bu torpağın yetirmələri təkcə silah tutan əsgərlər kimi deyil, həm də insan həyatını qoruyan, yaralı ürəklərə ümid bəxş edən fədakar insanlar kimi tanınıblar. Azərbaycan Ordusunun sıralarında xidmət edən belə zabitlərdən biri də tibb xidməti kapitanı Məhəmməd İbrahimlidir. O, həm zabit məsuliyyətini, həm də həkim peşəsinin müqəddəs missiyasını şərəflə daşıyan, Vətənə sədaqəti və sevgisi ilə seçilən gənc zabitlərdəndir.

Tibb xidməti kapitanı Məhəmməd İbrahimli 26 iyul 1994-cü ildə Göygöl rayonunun Balçılı kəndində dünyaya göz açıb. Uşaqlıq illərindən zəhmətə alışan, vətənpərvər ruhda böyüyən Məhəmməd hər zaman insanlara faydalı olmağı həyatının əsas məqsədi kimi görüb. Bu amal onun üçün həm Vətənə xidmət etməyə, həm də insan sağlamlığını qoruyan müqəddəs bir peşəyə - həkimliyə aparan yolun başlanğıcı oldu.

2011-ci ildə Azərbaycan Tibb Universitetinə qəbul olunaraq "Hərbi həkim işi" ixtisası üzrə təhsil almağa başlayan Məhəmməd İbrahimli tələbəlik illərindən öz zəhmətkeşliyi, məsuliyyətli yanaşması və peşəsinə olan sevgisi ilə seçilib. 2017-ci ildə ali təhsilini uğurla



başa vuran gənc zabit Azərbaycan Ordusunun sıralarında həm hərbi həkim, həm də zabit kimi öz missiyasını yerinə yetirməyə başlayıb.

Vətənə xidmət onun üçün sadəcə vəzifə deyil, həm də qürur məsələsidir. 11 illik hərbi xidmət yolu tibb xidməti kapitanı Məhəmməd İbrahimlinin peşəkarlıqla yanaşı, böyük məsuliyyət və fədakarlıq nümayiş etdirdiyini göstərir. Bu illər ərzində o, xidmət etdiyi hərbi kollektivdə intizamı, humanistliyi və işinə olan ciddi münasibəti ilə hörmət qazanıb.

Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi yalnız torpaqlarımızın azadlığı uğrunda aparılan mübarizə deyil, həm də Azərbaycan əsgərinin iradəsinin, birliyinin və şücaətinin təntənəsi idi. Həmin günlərdə hər bir zabit kimi, tibb xidməti kapitanı Məhəmməd İbrahimli də Vətən qarşısında borcunu şərəflə yerinə yetirdi. Hərbi həkim olaraq o, ixtisası üzrə yaralı döyüşçülərə tibbi xidmət göstərib.

Döyüş meydanında həyatla ölüm arasındakı incə sərhəddə çalışan hərbi həkimlər döyüşçülərin ikinci nəfəsi, ümid işığı olurlar. Zabit Məhəmməd İbrahimli də bu ağır, lakin şərəfli missiyanı ləyaqətlə yerinə yetirərək həm döyüşçülərin, həm də xidmət yoldaşlarının dərin hörmətini qazanıb. O, "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Peşəkarlığını daha da artırmaq məqsədilə tibb xidməti kapitanı Məhəmməd İbrahimli 2020-2023-cü illərdə Türkiyənin nüfuzlu hərbi tibb müəssisələrindən biri olan Türkiyə Silahlı Qüvvələrinin Gülhane Təlim və Araşdırma Xəstəxanasında oftalmologiya ixtisası üzrə ixtisaslaşma keçib. Bu müddət ərzində o, müasir tibbin yeniliklərini dərindən mənimsəyərək göz xəstəliklərinin müalicəsi və diaqnostikası sahəsində bilik və bacarıqlarını daha da təkmilləşdirib.

Hərbi həkim üçün peşə yalnız tibbi biliklərdən ibarət deyil. Bu yol həm də böyük mənəvi məsuliyyət, insan həyatına həssas yanaşma və fədakarlıq tələb edir. Kapitan Məhəmməd İbrahimli bu xüsusiyyətləri özündə birləşdirən zabitlərdəndir. O, xidmət etdiyi kollektivdə həm savadlı mütəxəssis, həm də səmimi, yardımsevər insan kimi tanınır.

Bu gün Azərbaycan Ordusunun sıralarında xidmət edən gənc zabitlər ölkəmizin nurlu sabahına inamın rəmzidir. Zabit Məhəmməd İbrahimli də həmin zabitlərdən biridir. Onun kimi vətənpərvər hərbi qulluqçularımızın xidmət yolu gənclər üçün həm vətənpərvərlik nümunəsi, həm də peşəsinə sədaqətin bariz göstəricisidir.

Vətənə xidmət edən insanların taleyi adətən səssiz qəhrəmanlıq salnaməsi kimi yazılır. Onlar gurultulu sözlərdən uzaq, lakin böyük məsuliyyət və sədaqətlə öz missiyalarını yerinə yetirirlər.

Vətəni qoruyan təkcə silah deyil - bilik və fədakarlıq da bu müqəddəs missiyanın ayrılmaz hissəsidir. Məhəmməd İbrahimli isə həm zabit qətiyyəti, həm də həkim mərhəməti ilə bu iki müqəddəs dəyəri öz şəxsiyyətində birləşdirən gənc zabitlərdəndir. Vətənə sədaqətlə xidmət edən hərbçilər olduğu müddətdə Azərbaycan Ordusu bundan sonra da qüdrətli ordular sırasında olacaqdır.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Hərbi təhsil

# Heydər Əliyev adına Hərbi Lisey: şərəf, qürur, Zəfər

*Bu gün tarixi qalib ölkənin vətəndaşları kimi vərəqləyirik. İllər öncə bir arzumuz var idi: bayram tonqalını Qarabağda yandırmaq. Artıq 6 ildir ki, azad Qarabağ torpaqlarında bayram tonqalını dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev yandırır. Torpaqlarımız Zəfər dolu bu alovun hər zərrəsində can tapır, ilbəil abadlaşır, doğmalarına qucaq açır. Artıq Qarabağda yalnız bayram tonqalları deyil, evlərin işığı da yanır, gülüş səsləri, dünyaya göz açan körpə qığıltısı da əbədi qayıdışımızın möhürü kimi səslənir. Bəli, biz qayıtdıq, haqq-ədalət Zəfər çaldı. Bütün dünya bir daha gördü ki, Azərbaycan haqlı savaş aparıb və Qarabağ Azərbaycandır!*





44 günlük Vətən müharibəsinin nəticəsi olaraq qazandığımız Zəfər yolu isə heç də asanlıqla başa gəlməmişdi. Bu yolda neçə-neçə igidlər canını qurban vermiş, Vətən torpaqları etibarlı müdafiə olunmuşdur. Bu gün onlarla gəncin təhsil aldığı Heydər Əliyev adına Hərbi Liseydə dahi şəxsiyyətin həyat və fəaliyyətinə həsr olunmuş muzeydə eksponatlar diqqətimizi çəkir. Bütün həyatını, ömrünü Vətəninin xoşbəxt gələcəyinə, istiqlalına həsr edən və bunun naminə mübarizə aparan Ulu Öndər Heydər Əliyevin ideyalarının işığında formalaşmış, yetişmiş gənclərin fotolarına baxırıq. Müxtəlif illərdə çəkilmiş fotolar, liseylə bağlı yazılan kitablar, bir də igidlik örnəyi olan liseyin məzunları haqqında məlumat. Onlar təhsil aldıqları ocağın tarixinə öz adlarını qızıl hərflərlə yazdırdılar. Məzunu olduqları liseyə şərəf və qürur gətirdilər. Heydər Əliyev adına Hərbi Liseyi bitirmiş məzunlardan 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb. Onlardan biri - kapitan Veysəl Müsibov şə-



hadətə ucalıb. 1 nəfər "Zəfər", 11 nəfər "Qarabağ" ordeninə layiq görülüb. Vətən torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlərdə liseyin 96 nəfər məzunu şəhadətə yüksəlib, özlərindən sonra dərin mənəvi bir iz qoyublar. İndi o izin cığırında təhsil alan kursantlar sələflərinin yolunu davam etdirərək günün nizam qaydalarına əməl edir, öz bilik və bacarıqlarını, fiziki hazırlıqlarını artırırlar.

Ulu Öndərin şah əsərlərindən olan Hərbi lisey bu günə qədər neçə-neçə gəncin hərb peşəsinə yönəlməsində, peşəkar zabit kadrlarının yetişməsində müstəsna xidmətlər göstərib. 1998-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialı olaraq fəaliyyətə başladığı dövrdən indiyədək bu təhsil ocağının 4 minə yaxın məzunu olub. Həmin məzunlar Azərbaycanın müxtəlif bölgələrində xidməti fəaliyyətlərini şərəf və ləyaqətlə yerinə yetirirlər. Bu gün də lisey öz ətrafına yalnız Naxçıvandan deyil, ölkənin müxtəlif bölgələrindən olan gəncləri yığıb. Gənclərin təlim-tərbiyəsi üçün liseydə müasir standartlara uyğun şərait yaradılıb: fənn kabinələri, laboratoriyalar, trenajorlarla təchiz olunmuş idman zalı, tir otağı, zəngin kitab fonduna malik kitabxana, STEAM kabinəsi. İkiillik təhsil müddətində bütün bu imkanlardan yararlanan kursantlara təcrübəli müəllimlər dərs keçirlər. Hərbi lisey şəhərciyində kursantların asudə vaxtının səmərəli keçməsi üçün yataqxana, sağlamlıqlarının keşiyində dayanan tibb məntəqəsi və futbol meydançası, idman qurğuları istifadədədir. Kursantlar muxtar respublikada keçirilən tədbirlərdə, idman yarışlarında, rəsm və şeir müsabiqələrində fəal iştirak edirlər. Bunu yataqxananın foyesində sərgilənən müxtəlif mükafatlar, fəxri fərman və medallardan da görmək mümkündür. Kursantların təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərdən 3 nəfəri "Əməkdar müəllim" adına, 2 nəfəri "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib. Liseyin tarix müəllimi Mirismayıl Seyidov uzun illər göstərdiyi səmərəli fəaliyyətinə görə təltif olunan



müəllimlərdəndir. Neçə-neçə kursantın yetişməsində böyük xidmətləri olub. Mirismayıl müəllim söhbətimiz əsnasında bildirdi ki, 2004-cü ildən fəaliyyət göstərən təhsil ocağı Azərbaycan dövlətinin ərazi bütövlüyünün qorunmasında, torpaqlarımızın düşmən tapdağından azad olunmasında çox mühüm rol oynayıb. "Belə ki, 1990-cı illərdə Birinci Qarabağ müharibəsi zamanı itirdiyimiz torpaqların azad olunmasında liseyimizin yetirmələri çox böyük rəşadət göstəriblər. Müxtəlif illərdə düşmən təxribatlarının qarşısını alarkən, habelə Aprel döyüşlərində, Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatı zamanı böyük şücaət göstərərək öz adlarını tarixə qızıl hərflərlə yazdırıblar. Bu gün də liseyimizin profili dəyişməyib, vətənpərvərlik ruhunda gənclərimizin yetişdirilməsində böyük səylər göstərilir. Liseyimizin kursantlarına tövsiyəmiz budur ki, şəhidlərimizin canı bahasına işğaldan azad olunmuş bu torpaqlarımıza bir daha düşmən ayağı dəyməsin və bunun üçün onlar xidmətlərini ayıq-sayıq, uğurla davam etdirsinlər".

İngilis dili müəllimi Təranə Məmmədova 11 ildir ki, liseydə fəaliyyət göstərir: "Hərbi liseydə işləmək məsuliyyətlidir. Buradakı hər bir kursantın özünün ayrı dünyası var. Biz onların sadəcə müəllimi deyilik. Eyni zamanda, onlara bir ailə, bir dost olmağı bacarmalıyıq. Kursantların təhsili də bizim üçün çox önəmlidir. Xarici dil bir çoxları üçün çətin ola bilər. Biz onları imtahan edirik və göstərdikləri nəticəyə uyğun işləməyə çalışırıq".

Eyni zamanda, Hərbi liseydə kursantlarımıza vətənpərvərlik ruhu daha geniş aşılanır. Burada böyük tənəffüslər olan zaman artıq zəng çalınmır. Əvəzinə vətənpərvərlik ruhunda musiqilər səsləndirilir.

Mayor Anar Mahmudov hazırda məzunu olduğu liseyin tədris bölmə rəisidir. Liseyin qazandığı uğurlardan, məzunlarının qələbəyə verdiyi töhfədən şövqlə danışan bölmə rəisi bu gün də Vətən müdafiəçilərinin layiqli davamçılarını yetişdirmək üçün səylə çalışdığını bildirdi: "Bu təhsil ocağı mənim üçün doğmadır. Burada vətənpərvərlik dərsi keçib formalaşmışam. İndi müəllimlərimlə çiyin-çiyinə çalışmaq, kursantların təlim-tərbiyəsində iştirak etmək qürurvericidir. Kursantlara baxanda gözümdə öz təhsil aldığım illər canlanır. Zabit və müəllim heyəti olaraq çalışırıq ki, liseyin müasir tədris imkanlarından kursantlar maksimum yararlanaraq daha çox bilik və bacarıq əldə etsinlər. Burada aldıqları təhsili, ilkin hərbi bilikləri ali hərbi məktəblərdə uğurla davam etdirə bilsinlər. Bu məktəbin əhəmiyyətini məzunlarımız 44 günlük savaşda şücaət göstərəndə bir daha gördük. Bu gün iftixar hissi ilə biz təkcə keçmişlərdən deyil, elə liseyin məzunu olan igidlərimizi də örnək göstəririk. Torpaqlarımız azaddır, əzəli ata-baba yurdlarımıza böyük köç davam edir. Biz isə öz missiyamızı yerinə yetirərək, rəşadətli ordumuzun peşəkar zabit kadrları ilə bu istiqamətdə əlimizdən gələni əsirgəməməliyik".

Sonda yenə ənənəni pozmuruq. Liseyin bir qrup kursantı - gələcəyin Vətən keşikçiləri ilə keçirdiyimiz dəqiqələri xatirəyə çeviririk. İllər sonra bu fotoda bir qəhrəmanın, bir cəsur döyüşçünün, bir generalın kursant illərini göstərib, haqqında qürurla danışacağıq. Əvvəllər də olduğu kimi...

**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı" qəzetinin məsul katibi**



# Şəhid Qabil Orucəliyevin xatirəsi yad edilib



Naxçıvan şəhərinin Əliabad qəsəbəsində 2016-cı ilin Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan leytenant Qabil Habil oğlu Orucəliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirdə Naxçıvan şəhər İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Daxili İşlər Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Əlahiddə Ümumqoşun Ordunun zabitləri, şəhid ailələri, veteranlar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra şəhid Qabil Orucəliyevin məzarı ziyarət olunub, üzərinə tər güllər düzülüb, ruhuna dualar oxunub.

Çıxış edənlər Aprel döyüşlərinin Azərbaycan Ordusunun şanlı tarixində xüsusi yer tutduğunu vurğulayıb, həmin döyüşlərin xalqımızın iradəsinin, ordumuzun gücünün bariz nümunəsi olduğunu bildiriblər. Qeyd olunub ki, məhz bu qəhrəmanlıq salnaməsi sonradan əldə olunan Böyük Qələbənin əsasını təşkil edib. Şəhid Qabil Orucəliyevin döyüşlər zamanı göstərdiyi igidlikdən bəhs edilərək onun Vətənə sədaqətinin gənc nəsil üçün örnək olduğu diqqətə çatdırılıb.

Bildirilib ki, Qabil Orucəliyev döyüş tapşırıqlarını layiqincə yerinə yetirərək son ana qədər düşmənə qarşı mübarizə aparıb və böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucalıb. Onun adı Azərbaycan hərb tarixində igidlik və şücaət nümunəsi kimi daim yaşayacaq.

Şəhidin doğmaları çıxış edərək göstərilən diqqət və ehtirama görə minnətdarlıqlarını bildiriblər, Qabil Orucəliyevin Vətənə sevgisindən, hərbi xidmətə bağlılığından və döyüş yoldaşları arasında qazandığı hörmətdən söz açıblar. Bildirilib ki, onun xatirəsinin belə yüksək səviyyədə yad olunması ailəsi üçün böyük təsəllidir.



Tədbirdə iştirak edən zabitlər və döyüş iştirakçıları da çıxış edərək Aprel döyüşlərində göstərilən qəhrəmanlıq nümunələrindən bəhs edib, şəhid Qabil Orucəliyev kimi igidlərin şücaətinin Azərbaycan əsgərinə daim nümunə olduğunu vurğulayıblar. Qeyd olunub ki, şəhidlərimizin qanı yerdə qalmayıb və onların arzuları bu gün reallığa çevrilib.

Sonda bir daha vurğulanıb ki, Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq, onların keçdiyi şərəfli həyat yolu gələcək nəsillər üçün örnək olaraq qalacaq.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Kursantlar idman yarışının qalibi olublar





Qazax Olimpiya Kompleksində Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Milli İdman Növləri Assosiasiyasının dəstəyi ilə Dünya Alpaqut Federasiyasının (DAF) Azərbaycan nümayəndəliyi tərəfindən Alpaqut Turan Döyüş Sənəti üzrə Azərbaycan Kuboku keçirilib.

Yarışda ölkənin müxtəlif bölgələrindən 28 komanda, ümumilikdə 304 idmançı iştirak edib. İdmançılar Alpaqut Döyüş Sənətinin Ayça, Batur, Caymaz, Qurşaq və Kaçut sistemləri üzrə bacarıqlarını nümayiş etdiriblər.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Hacıyev Abbas Əli oğlu, Naxçıvan Hərbi Kollecinin kursantı İbrahimov Nihad Elçin oğlu və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Əmrahov Adəm Elsevər oğlu Alpaqut Turan Döyüş Sənəti (Batur) üzrə keçirilən Azərbaycan Kubokunda iştirak ediblər.



Hər üç kursant yarışda daha yüksək peşəkarlıq, fiziki hazırlıq və döyüş taktikası nümayiş etdirərək öz çəkiləri üzrə 1-ci yerə layiq görülüb.

Qələbə münasibətilə kursantlarımızı təbrik edir, onlara təhsildə və idman fəaliyyətlərində daha yüksək nailiyyətlər arzu edirik.

**"Azərbaycan Ordusu"**

*Yeni nəşrlər*

# Azərbaycanın hərb tarixinə dair kitab türk dilində çapdan çıxıb

*"Azerbaycan'da Askeri işleri ve Askeri Sanati (Eski çağlardan 16. yüzyılına kadar)" adlı monoqrafiya türk dilində işıq üzü görüb.*




AZƏRTAC xəbər verir ki, geniş oxucu üçün nəzərdə tutulan 344 səhifəlik elmi əsərin müəllifi Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan birinci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyevdir.

Əsər Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu tərəfindən hazırlanmış "Azərbaycanın hərb tarixi" monoqrafiyası əsasında təkmilləşdirilib. Kitabda üç minillik dövr ərzində Azərbaycan ərazisində baş vermiş hərbi-siyasi hadisələr, qədim dövrlərdən XVI əsrə qədər baş vermiş müharibələr və hərbi-strateji düşüncənin formalaşma mərhələləri geniş şəkildə işıqlandırılır.

Zəngin mənbələrə və elmi ədəbiyyata əsaslanan bu tədqiqatda Azərbaycanda hərb sənətinin yaranması və inkişaf xüsusiyyətləri, hərbi sistemin təşkili, döyüş taktikaları, istehkam və müdafiə qurğularının rolu, eləcə də müxtəlif silah növlərinin istehsalı və tətbiqi məsələləri ətraflı şəkildə araşdırılır.

Müəllif tərəfindən təqdim edilən monoqrafiyada bu dövrdə Azərbaycan ərazisində yaşamış tayfaların müharibələrdə iştirakı, qədim Azərbaycan dövlətlərində hərb işinin təşkili və yerli tayfaların silahları haqqında qiymətli məlumatlar da öz əksini tapıb.

Kitab çoxlu sayda tarixi xarakterli illüstrativ materialla zənginləşdirilib - dövlətlərin, yürüşlərin xəritələri, döyüş əməliyyatlarının, hərbi təşkilatların yürüş və döyüş düzülüşləri sxemləri, tarixi silahların fotoşəkilləri, batal miniatürləri, o cümlədən torevtika və daşişləmə sənəti nümunələri daxil edilir.

Beləliklə, ən qədim dövrlərdən XVI əsrə qədər Azərbaycanın hərb tarixinin öyrənilməsi və müvafiq ümumiləşdirilməsinin aktuallığı, problemin Azərbaycan tarixşünaslığında konkret-tarixi və konseptual baxımdan araşdırılmaması təqdim edilən tədqiqatın mövzu və məqsədlərini şərtləndirib.

Elmi məzmunu və aktuallığı ilə seçilən bu nəşr elmi biliklərin yayılmasına, milli tariximizin zənginləşdirilməsində əhəmiyyətli rol oynayır və daha dərindən öyrənilməsinə xidmət edir.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 397
Nüsxə 3653